# AZƏRBAYCANDA MULTİKULTURALİZM DÖVLƏT SİYASƏTİDİR

## *Dövlətimiz öz tərəfindən çalışacaq ki, dünyada multikulturalizm sahəsində təhlükəli meyillər yumşaldılsın və müsbət məcraya yönəldilsin*

**Dünyanın bir çox yerlərində siyasi və humanitar kataklizmlər baş verir, bu proses nəinki səngimir, əksinə, daha da genişlənir, yeni-yeni çalarlar kəsb edir, sərhədlərini daim genişləndirir. İndiyədək demokratiyanın beşiyi sayılan Avropada islamafobiya, irqçilik meyilləri getdikcə güclənir. Artıq aydın olduğu kimi, böyük siyasi qüvvələrin idarəetməsi ilə baş verən bu qeyri-insani kataklizmlər yüz minlərlə günahsız insanın faciəsinə, ölümünə səbəb olub.**

Sonu görünməyən fəlakətlər fonunda bir məsələ tam çılpaqlığı ilə ortadadır, neftin qiyməti dünyanın güclü siyasi qüvvələrinin maraqlarının toqquşması məcrasında daim aşağı salınır, ölkələrin iqtisadiyyatı çökdürülür, defolta sürüklənir, dünya bazarlarının idarə olunması müəyyən mərkəzə yönəldilir. Bundan başqa, münaqişə və müharibə zonalarında müxtəlif silahlar sınaqdan çıxarılır. İnsanları böyük faciə və məhrumiyyətlərə sürükləyən bu güclənən axının getdikcə daha çox siyasi bağlılıqları da aşkara çıxmaqdadır. Müxtəlif mədəniyyətlərə, dini milli mənsubiyyətlərə malik insan qruplarının sülh, əmin-amanlıq və özünüifadəetmə şəraitində yaşamasını təmin etməsini bildirən multikulturalizm termini də Avropada yaranıb. Lakin bu gün hətta rəsmilərdən belə bu bəşəri dəyərin bərqərar ola bilməsinin şübhə doğurduğunu eşidirik. Təcrübədə də Avropada bu hal günü-gündən güclənir.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında regionlarin inkişafı üçüncü Dövlət Proqramının icrasının müzakirəsi haqda nitqində qlobal təhdidlər şəraitində, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi fonunda bu siyasi, sosial, hərbi kataklizmlərin bəşəriyyəti fəlakətə sürüklədiyi barədə deyib: “2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yaranmışdır. Əlbəttə ki, bu hadisələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir”.

Ölkəmizdə tarixən bütün etnoslar qardaş kimi yaşayıb. Bu keyfiyyət xalqımızın qədimdən-qədim özünəməxsus dövlətçilik



ənənəsini yaşatması, ən mühümü bəşəri dəyərlərin daşıyıcısı olması ilə bağlıdır. Bu mültikultural şəraitdə yaşayan Azərbaycan dünyanın ən sabit ölkələrindəndir. Millətlərarası, dinlərarası münasibətlərin sağlam zəmində qurulması və dövlətin həyatında müsbət nəticələrlə müşayiət olunması Azərbaycan üçün tarixən xarakterik bir göstərici olubdur. Tarixən adi insani və vətəndaşlıq birgəyaşayış norması kimi qəbul etdiyimiz bu mənəvi keyfiyyətlərin davamlılığı, dayanıqlığı xalqımızın milli şüurunun, milli-mənəvi dəyərinin ayrılmaz hissəsi, dövlətçilik ənənəmizdə humanizmin və multikulturalizmin məxsusi yerinin olmasının əyani sübutudur. Azərbaycan multikulturalizmi bir birgəyaşayış modeli kimi tədqiq olunmalı bəşəri əhəmiyyətli elmi-praktik mövzudur. Bu günlərdə dövlət başçısının ölkəmizin müsəlmanlarına vəhdətlilik çağırışına dindarlarımız Heydər məscidində cümə namazını birlikdə qılmaqla cavab vermişlər. Bu cavab xalqın dövlət siyasətinə tərəfdar çıxması və dəstək verməsidir.

Xalqımız tarixən müxtəlif xalqlarla birgə yaşamış, onların mədəniyyətinə, dilinə, etgnogenezinə dərin hörmət bəsləmiş, özlərini ifadə etmələrinə hüquqi-praktiki şəraiti yaratmış, bütün dövlətçilik sistemlərində bu, bir pozulmaz qanun kimi idarəetmədə də təsbit olunmuşdur. Müasir müstəqil Azərbaycan dövlətçiliyində də belədir. Dövlət başçısı 2016-cı ili “Multikulturalizm ili” elan etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev dünyada bu bəşəri dəyərin bərqərar olması üçün dövlətimizin səyini əsirgəməyəcəyi barədə demişdir: “Biz həmişə çalışmışıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz işə öz töhfəsini vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin”.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**